# «ƏSRİN MÜQAVİLƏSİ»-nin İMZALANMASI MÜHÜM TARİXİ HADİSƏDİR

**H.Ə.BƏXTİYAROV**
*Gəncə Dövlət Universiteti*

Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanmasında ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesinin bərpa edilməsi və yenidən qurulması xüsusi əhəmiyyət kəsb edirdi. Gənc dövlətin qarşısına mürəkkəb, lakin şərəfli bir vəzifənin qoyulduğunu nəzərə alan ümummilli lider, prezident Heydər Əliyev Azərbaycanın yeni dövlət neft strategiyasını hazırladı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanması idi (1).

Qeyd etmək lazımdır ki, mövcud şəraitdə neft sənayesinin dirçəldilməsi üçün iki istiqamət mövcud idi. Birinci istiqamətə görə, Azərbaycan dövləti xarici neft şirkətlərini cəlb etmədən öz potensialı hesabına neft sənayesini bərpa və inkişaf etdirməlidir. İkinci istiqamətin tərəfdarları isə hesab edirdilər ki, məhz xarici investorların köməyi ilə yaxın gələcəkdə nəinki neft sənayesinin, həm də iqtisadiyyatımızın ayrı-ayrı sahələrinin tərəqqisinə nail olmaq mümkündür. Fikrimizcə, birinci istiqamət üçün xeyli vaxt tələb olunduğu halda, ikinci istiqamət 5-10 il vaxt tələb edərdi. Ölkə prezidenti Heydər Əliyev Azərbaycan iqtisadiyyatının ağır vəziyyətini və ikinci istiqamətin daha əlverişli olduğunu əsas götürərək xarici investorların diqqətini respublikanın neft sənayesinə cəlb etdi.

Xarici neft şirkətləri ilə danışıqların aparılması dövlət başçısı tərəfindən Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıldı. Danışıqlar qrupunun tərkibinə ölkəmizin neft və xarici siyasət üzrə mütəxəssisləri daxil edilmişdi və onların sırasında İlham Əliyevin, Xoşbəxt Yusifzadənin, Natiq Əliyevin rolu xüsusi əhəmiyyət kəsb edirdi. Danışıqların çox gərgin keçməsinə baxmayaraq, qrup Azərbaycanın maraqlarına tam cavab verən müqavilə şərtlərinə nail oldu (2, s. 212).

Bir amili vurğulamaq yerinə düşərdi ki, danışıqların gedişinə həm daxili, həm də xarici qüvvələr, xüsusilə Rusiya Federasiyasının nümayəndələri mane olurdular. Belə ki, Rusiya hökuməti Xəzər dənizinin bütün Xəzəryanı ölkələr üçün ümumiliyini və onun milli sektorlara bölünməzliyini təkid edirdi. Buna görə də Rusiya tərəfinin fikrincə Azərbaycan birtərəfli qaydada xarici investorlarla neft müqaviləsi bağlaya bilməz. Rusiyanın belə kəskin mövqeyi

xarici şirkətləri qeyri-ciddi addımlar atmağa məcbur etdi və onların nümayəndələri bildirdilər ki, müqavilə yalnız Xəzər dənizinin statusu həll edildikdən sonra qüvvəyə minə bilər. Göründüyü kimi, danışıqların gedişində gərgin vəziyyət yaranmış və məsələnin belə şəkil alması Azərbaycan hökumətini təmin edə bilməsidir. Buna görə də Azərbaycan hökuməti ARDNŞ-in I vitse prezidenti İlham Əliyevi danışıqlar üçün Vaşinqtona ezam etdi. Məhz, İlham Əliyev ABŞ-da Energetika Nazirliyinin rəhbərləri ilə səmərəli danışıqlar apardıqdan sonra ABŞ hökumətinin köməyi sayəsində xarici şirkətlər bu fikirdən əl çəkdilər (3).

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən, neft ehtiyatları 500 milyon tondan çox olan «Çıraq», «Azəri» və «Günəşli» yataqlarının birgə istismarı ilə bağlı Beynəlxalq Şirkətlər Konsorsiumu və Azərbaycan Dövlət Neft Şirkəti arasında 1991-ci ildən başlanmış danışıqların müvəffəqiyyətlə başa çatmasından sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1994-cü il sentyabrın 14-də Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində fərman verdi (4). Həmin fərmanla Azərbaycan Dövlət Neft Şirkətinə Beynəlxalq Şirkətlər konsorsiumu ilə müqavilələr imzalamağa razılıq verildi.

1994-cü il sentyabrın 20-də Bakının «Gülüstan» sarayında ARDNŞ ilə dünyanın 6 ölkəsinin ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanının iri neft şirkətləri daxil olan konsorsium (sonralar Yaponiya şirkəti də bu konsorsiuma qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının birgə işlədilməsi haqqında 30 illik saziş imzalandı. «Əsrin müqaviləsi» adlandırılan bu müqaviləni imzalayan konsorsiumun tərkibinə ABŞ-ın «Amoko», «Yunokal», «Pennzoyl», «Eksson» Böyük Britaniyanın «Britiş Petroleum», «Remko», Rusiyanın «Lukoyl», Norveçin «Statoyl» Türkiyənin «Türk petrolları», Səudiyyə Ərəbistanının «Delta» və Yaponiyanın «İtoçi» şirkətləri daxil idi (5, s. 248).

«Əsrin müqaviləsi»nin əhatə etdiyi «Azəri», «Çıraq», «Günəşli» sahəsində ilkin neft ehtiyatları 511 milyon ton, səmt qazı ehtiyatları 100 milyard kubmetr, sərbəst təbii qaz ehtiyatları isə 100-150 milyard kubmetr səviyyəsində qiymətləndirilirdi. Ehtimal olunan sərmayə 10 milyard dollar həcmində nəzərdə tutulurdu (3).

30 il ərzində Azərbaycan, «Əsrin müqaviləsi»ndən bütün gəlirin 80%-ni, xarici neft şirkətlərinin hamısı birlikdə isə 20%-ni götürməli idi. Bu müddət ərzində ölkənin neft sənayesinə 60 milyard ABŞ dolları məbləğində investisiya qoyulacaq və 2010- cu ildən başlayaraq ölkəmiz hər il dünya bazarına 50 milyon tona qədər neft çıxaracaqdır (6, s. 49).

Kontrakta görə, hasil olunacaq bütün təbii səmt qazı tamamilə Azərbaycanın ixtiyarına veriləcəkdir ki, bu isə 55 milyard kubmetr «mavi yanacaq» deməkdir (7, s. 329). Qeyd etmək lazımdır ki, «Əsrin müqaviləsi»ndə sazişlərin hər biri üçün pay bölgüsü tam

dəqiqləşdirilmişdi. Belə ki, ilkin olaraq götürülən gəlirin 20%-i ARDNŞ-ə, 17,01%-i «Amoko», 17,127%-i «Bi-pi», 1,68%-i «Dem Norske», 10%-i «Lukoyl» 2,45%-i «Makdernott». 9,82%-i «Pennzoyl» 2,08%-i «Remko», 8,563%-«Statoyl», 1,75%-«Türk petrolları» və 9,52%-i «Yunokal» şirkətlərinə çatmalı idi (8). Göründüyü kimi, neft kontraktlarında Azərbaycan xalqının və dövlətinin maraqları nəzərə alınmış, milli mənafelərimizə cavabverən saziş imzalanmışdır.

«Əsrin müqaviləsi» əsasında istismar edilən neft yataqlarımız Sovet dövründə də mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, 1985-ci ildə yüksək neft- qaz potensialına malik «Çıraq» yatağı, 1987-ci ildə isə «Çıraq»dan cənub-qərbdə, Abşeron-Balaxanı qalxım sahəsinin davamında yüksək neft-qaz ehtiyatına malik daha bir yataq «Azəri» neft-qaz yatağı kəşf edilmişdi (9, s. 104-105). Lakin, bu yataqların sovet texnologiyaları vasitəsilə istismarı mümkün deyildi. ARDNŞ-nin Qərbin iri neft şirkətləri ilə birgə istismarı nəticəsində həmin neft yataqlarında yeni-yeni quyular qazılıb istismara verilmişdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, «Çıraq» neft yatağının platformalarının birində suyun dərinliyi 120 metr olan yerdə 3 min metr dərinlikdə bir quyu qazılmış və bu quyudan neft alınmışdır. Plana görə, gələcəkdə həmin platformadan ikinci quyu qazılacaq, sonra daha 8 quyu qazılacaq. Ümumiyyətlə isə orada 24 quyu qazılacaqdır (5, s. 257). Hesablamalara görə «Çıraq» yatağından gündə 11,5 min barel, yaxud ildə 6 milyon ton neft və gündə 69 milyon kub.fut, yaxud 1,5 milyon kubmetr qaz çıxarılacaqdır (10, s. 115). Xarici neft şirkətləri ilə birgə istismar edilən «Günəşli» yatağında isə 12 platformada 150 istismar quyusu qazılmışdır. Bu yataq Azərbaycan neftinin 65 faizini verir (11, s. 110). Qeyd etdiyimiz faktlar təsdiq edir ki, neft kontraktlarının bağlanması ümummilli lider, prezident Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi kimi reallaşmış və Azərbaycan iqtisadiyyatının dirçəldilməsində güclü potensial yaratmışdır. Fikirlərimizi «Əsrin müqaviləsi»nə daxil olan şirkətlərin Azərbaycan iqtisadiyyatına 35-38 milyard dollar investisiya qoyulmasını nəzərdə tutduqları da təsdiq edir (12, s. 109). Xarici investorlar tərəfindən «Neft kontraktları» sazişlərinin imzalanmasından sonrakı ilk aylarda Xəzərin Azərbaycan sektoruna 1,5 milyard dollar vəsait sərf olunmuşdur (11, s. 167).

«Əsrin müqaviləsi»ndə göstərildiyi kimi xarici investorlar qarşıdakı 30 il ərzində Azərbaycanda çalışacaqlar və neft istehsalından bəhrələnəcəkdir. Eyni zamanda bu bəhrədən Azərbaycan xalqı və dövləti də faydalanacaq, onun sosial-iqtisadi inkişafı sürətlənəcəkdir.

«Neft kontraktları» sazişləri respublika parlamenti tərəfindən ratifikasiya edildikdən sonra onun şərtlərinə əsasən 1994-cü il dekabrın 12-də qanuni qüvvəyə minmişdir. 1995-ci il yanvarın 24-də rəhbər komitənin ilk iclası keçirilmiş iclasda iş proqramı və 1995-ci il üçün 105 milyon dollar məbləğində büdcə təsdiq olun-

muşdur (10, s. 104).

Azərbaycan tarixinin ən parlaq səhifələrindən olan «Əsrin müqaviləsi» çox mühüm tarixi əhəmiyyətə malikdir. Məhz, Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 6 ölkəsinin 11 neft şirkətləri arasında bağlanmış «Əsrin müqaviləsi» müstəqil respublikamızın yeni neft strategiya və doktrinasının əsasını qoydu (12, s. 170). Həmçinin, bu müqavilə ilə sərmayə qoyuluşu 60 milyard dollar olan 19 müqavilənin başlanğıcı qoyulmuş oldu (9, s. 111).

«Əsrin müqaviləsi»nin əhəmiyyət kəsb edən cəhətlərindən biri də ondan ibarətdir ki, müqavilənin imzalanması ilə Azərbaycanın beynəlxalq iqtisadi və siyasi əlaqələri möhkəmləndi və ABŞ-Azərbaycan münasibətlərində yeni dövr başlandı. Belə uğurlar yalnız ümummilli liderimiz, prezident Heydər Əliyevin düşünülmüş və uzaqgörən xarici siyasətinin nəticəsində mümkün ola bilərdi. Heydər Əliyev «Əsrin müqaviləsi»ni imzalamaqla təkcə Amerika Birləşmiş Ştatlarının və inkişaf etmiş Avropa dövlətlərinin investisiyasını Azərbaycana cəlb etmədi, eyni zamanda onların siyasi dəstəyini qazandı» (12, s. 164). Bir faktı qeyd etmək yerinə düşərdi ki, «Əsrin müqaviləsi»ndə digər dövlətlərin şirkətləri ilə müqayisədə ABŞ şirkətlərinin payı 40 faizə yaxındır (11, s. 64).

«Əsrin müqaviləsi»nin həyata keçirilməsində Azərbaycan dövlətinin rəhbərliyi çox mürəkkəb problemlərlə qarşılaşırdı. Belə ki, müqavilənin bağlanmasından bir neçə gün sonra xarici qüvvələrin dəstəyi ilə yüksək dövlət məmurlarına sui-qəsdlər edildi və prezidentə qarşı terror cəhdləri törədildi. Ölkənin belə ağır şəraitində Rusiyanın Xarici İşlər naziri bildirdi ki, onun ölkəsi bu müqaviləni tanımır (11, s. 251). Halbuki, «Əsrin müqaviləsin»də ABŞ dövləti istisna olunmaqla, Rusiya Federasiyasının payı Avropa dövlətləri ilə müqayisədə o qədər də az deyildi. Belə ki, müqavilənin layihəsində payların 10%-i Rusiyanın «Lukoyl» şirkətinə məxsus idi (13). Lakin, həm yerli, həm də xarici qüvvələrin bütün təzyiq və təhdidlərinə baxmayaraq başda ümummilli liderimiz Heydər Əliyev olmaqla Azərbaycan dövlətinin rəhbərliyinin siyasi idarəsi və qətiyyəti sayəsində bu maneələr çox böyük müvəffəqiyyətlə aradan qaldırıldı. Məhz, bundan sonra ölkədə siyasi sabitlik yarandı və xarici investisiyaların qoyuluşu üçün yeni-yeni müqavilələrin bağlanmasına yol açıldı.

«Xəzər dənizinin Azərbaycan sektorunda «Qarabağ» strukturunun və ona bitişik sahələrin kəşfiyyatı və işlənməsi haqqında» Azərbaycan Respublikasının prezidenti tərəfindən 1995-ci il avqustun 4-də sərəncam verildi (10, s. 191). Həmin sərəncama uyğun olaraq 1995-ci il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş «Qarabağ» strukturunda və ona bitişik ərazilərdə kəşfiyyat aparılması, yataqların işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya və ABŞ şirkətləri ilə yeni saziş imzalandı. Müqavilədən əldə olunan daxili gəlirin 65-80 faizinin Azərbaycana çatacağı razılaşdırıldı (2, s. 214).

«Qarabağ» neft müqaviləsində dünyanın iri kapital potensia-

lına malik şirkətlərindən ibarət konsorsium Amerikanın «Pennzoyl», İtaliyanın «ACİP», Rusiyanın «Lukoyl», Rusiya-İtaliya birgə şirkəti «Luk-ACİP» və Azərbaycan Dövlət Neft Şirkəti iştirak edirdi (13, s. 67). Çıxarılacaq neft saziş iştirakçıları arasında bu qaydada bölüşdürülmüşdür: «Luk-ACİP»-50 faiz, «Pennzoyl» Kaspian development korpereyşin»-30 faiz, Azərbaycan Dövlət Neft Şirkəti -7,5 faiz, «Lukoyl»-7,5 faiz, «ACİP»-5 faiz (5, s. 192).

«Qarabağ» neft müqaviləsi «Qarabağ» neft yatağının 25 il müddətində işlənməsini nəzərdə tuturdu. Bu yataqdan ilkin neft 2003-cü ildə hasil edilməyə başlanmışdır. Azərbaycan neft sənayesinin inkişafında böyük əhəmiyyət daşıyan «Qarabağ» neft müqaviləsi 1996-cı il fevralın 23-də Azərbaycan Respublikasının parlamenti tərəfindən təsdiq edilmiş və qüvvəyə minmişdir.

Bu müqavilənin bağlanmasından sonra ARDNŞ-i ilə xarici neft şirkətləri arasında daha bir neçə saziş imzalandı. Azərbaycan Respublikasının prezidenti tərəfindən 1995-ci il oktyabrın 4-də «Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Şahdəniz» yatağının kəşfiyyatı və işlənməsi haqqında» sərəncam verildi (10, s. 245). Bu sərəncama müvafiq olaraq 1996-cı il iyunun 4-də Xəzərin «Şahdəniz» yatağının birgə işlədilməsi haqqında ARDNŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri konsorsiumu müqavilə imzaladılar. Bu müqaviləyə görə də ümumi gəlirin 80 faizi Azərbaycana çatacaqdır (2, s. 214). «Əsrin müqaviləsi» və «Qarabağ» müqavilələri kimi «Şahdəniz» neft müqaviləsini də qeyd etdiyimiz dövlətlərin iri neft şirkətləri «Britiş Petroleum» (Böyük Britaniya), «Statoyl» (Norveç), «Türk petrolları» (Türkiyə), «Lukoyl» (Rusiya), «Elf-Akiten» (Fransa) və «İNNK» (İran) şirkətləri bağladılar. Müqavilənin imzalanmasından sonra yataqda qazıntı işlərinə başlanıldı və burada dərinliyi 6,5 min m olan quyular qazılaraq nadir qaz kondensat yatağı kəşf edildi. Qərb ekspertlərinin fikrincə olduqca böyük qaz ehtiyatı olan bu yatağın kəşf edilməsi ilə Azərbaycan təkcə neft deyil, həm də qaz «kralına» çevrildi (14). Hesablamalarına görə, «Şahdəniz» yatağından 400 milyard kubmetr qaz çıxarılması, 200 milyon ton qaz-kondensat əldə olunması və 100 milyon ton neft hasil edilməsi gözlənilirdi (10, s. 250). Məhz, bu qədər neft-qaz potensialı Azərbaycan dövlətinin rəhbərliyinə imkan verdi ki, Azərbaycanın qaz sənayesinin inkişaf strategiyasını və onun dünya bazarına çıxarılması yollarını müəyyənləşdirsin.

ARDNŞ ilə xarici neft şirkətləri arasında bağlanmış müqavilələrin icrası xüsusi komitənin – Əməliyyat şirkətinin yaradılmasını tələb edirdi. Buna görə də tezliklə belə bir şirkət – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və 1996-cı il avqustun 20-də Bakının Bayıl sahəsində şirkətin ofisinin rəsmi açılışı oldu (10, s. 91).

1996-cı il dekabrın 14-də Xəzərdə «Dan ulduzu» və «Əşrəfi» yataqlarının birgə işlədilməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiyanın neft şirkətləri ilə ARDNŞ-i arasında daha bir neft sa-

zişi bağlandı (15). Sazişin imzalanmasında həmin dövlətlərin müvafiq olaraq «Amoкo», «Yunoкal», «Delta» və «İtoçi» şirкətləri iştiraк etmişdir. Bu müqavilədə də ABŞ dövlətinin payı digər iкi dövlətlə müqayisədə çox olmuşdur.

Ümumiyyətlə, 1994-2000-ci illərdə ARDNŞ 14 ölкənin 32 neft şirкəti ilə 21 müqavilə imzalamışdır (16). Xarici neft şirкətləri ilə bağlanmış bu müqavilələrin əhatə etdiyi yataqlarda neft ehtiyatları 12 milyard barelə bərabərdir (11, s. 88). 1994-cü ilin sentyabr ayında bağlanan «Əsrin müqaviləsi», dünyanın 14 ölкəsinin 32 şirкəti ilə əldə edilmiş sazişlər, 21 neft müqaviləsinə əsasən respubliкamıza 60 milyard dollardan artıq xarici sərmayə qoyulması gözlənilir. 2000-ci ilə кimi xarici neft şirкətlərinə müqavilələr üzrə işlərin həyata кeçirilməsi üçün кifayət qədər investisiya qoyulmuşdu.

«Neft кontaкtları»nın imzalanması və sonraкı dövrlərdə bağlanmış müqavilə və sazişlər bir daha təsdiq edir кi, bu müqavilələrin imzalanması ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın milli maraqlarını təcəssüm etdirən parlaq siyasətinin nəticəsidir və Azərbaycan xalqının iqtisadi, siyası və mədəni inкişafına xidmət edən böyüк hadisələr кimi Azərbaycan tarixinə yazılacaqdır.

## ƏDƏBİYYAT


1. «Azərbaycan neft strategiyasının və neft sənayesinin yeni erası başlanmışdır». «Azərbaycan» qəzeti. 31 avqust 2001.
2. Tahir Qaffarov. Azərbaycan Respubliкası əsrə bərabər on il 1991-2001. B., 2001.
3. «Müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası uğurla həyata кeçirilir». «Respubliкa» qəzeti. 21 sentyabr 1999.
4. «Xəzərin Azərbaycan seкtorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirкətləri кonsorsiumu ilə danışıqların yeкunları barəsində» Azərbaycan Respubliкası prezidentinin fərmanı. «Respubliкa» qəzeti. 20 sentyabr 1994.
5. Heydər Əliyev. «Azərbaycan nefti dünya siyasətində». Dördüncü кitab. B., 1997.
6. M.Yusifov. H.Əliyev və Azərbaycançılıq ideologiyası. B., 2003.
7. R.Mirzəzadə Azərbaycanı dünyaya saydıran insan. B., 1998.
8. «Контракт, которого ждали». Газ. «Бакинский рабочий». 23 сентября 1994.
9. Ramiz Mirzəyev. Heydar Aliyev and New strategu of independent Azerbaijan. B., 1999.
10. Heydər Əliyev Azərbaycan nefti dünya siyasətində. Beşinci кitab B., 1997.
11. Sabaha inamla. B., 2002.
12. Heydər Əliyev işığı – İpəк Yolu B., 2000.
13. Azərbaycan-Böyüк Britaniya: əməкdaşlıq və tərəfdaşlıq (1991-2001) Baкı, 2001.
14. «ARDNŞ-in Birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin məruzəsi». «Azərbaycan» qəzeti. 21 sentyabr 1999.
15. «Daha bir tarixi neft müqaviləsi». «Azərbaycan» qəzeti. 17 deкabr 1996.
16. «Neftçilər günü»nə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respubliкasının prezidenti Heydər Əliyevin nitqi». «Azərbaycan» qəzeti. 23 sentyabr 2001.

## ПОДПИСАНИЕ «КОНТРАКТА ВЕКА» - ВАЖНОЕ ИСТОРИЧЕСКОЕ СОБЫТИЕ

**Г.А.БАХТИЯРОВ**

**РЕЗЮМЕ**

В статье широко освещается важное историческое значение заключенного «Контракта века». В научно-исследовательской работе показано, что подписание «Контракта века» является логическим итогом, победой на международной арене президента Азербайджанской Республики, видного государственного деятеля, дальновидного дипломата, национального лидера Гейдара Алиева. «Контракт века» был подписан в результате титанической деятельности Гейдара Алиева и в итоге реализовалась успешная нефтяная стратегия Азербайджана. Страна, в результате внутренней и внешней политики, добилась больших успехов, то есть была создана сильная социально-экономическая и потенциальная материальная база для укрепления государственной независимости Азербайджанской Республики.

## SINING «CONTRACT OF CENTURY» - PETROLEUM TREATMENT AS IMPORTANT HISTORICAL EVENT

**Q.A.BAKHTIYAROV**

**SUMMARY**

In article elucidated important historical importance concluded «Contract of century». In research work was showed that sining «Contract of century» was logical result, victory on international scence of president of Azerbaijan Republic, of eminent state man, far-sighted diplomat, national leader Heydar Aliyev. «Contract of century» was concluded as a result of titanic activity of Heydar Aliyev and in result was realized victory petroleum strategy of Azerbaijan. As a result internal and foreign policy the country achieved a great successes, that was created strong social–economic and potential material base for consolidation state independence of Azerbaijan Republic.